**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№383/6** **15 dekabr 2025-ci il**

**Azərbaycan Respublikasının Auditorlar Palatasında 2025-ci il ərzində fəaliyyət göstərən "dəyirmi masa", təşkil olunan ictimai-siyasi tədbir, konfrans, seminar, ustad dərsləri, "Auditorun səsi" mövzusunda müzakirələr və həmin tədbirlərdə Palata üzvlərinin iştirakının vəziyyəti barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2025-ci il üzrə iş planının 10.2-ci "Auditin aktual problemləri üzrə konfransların, "dəyirmi masa"ların, ustad dərslərinin və seminarların təşkili" və 11.5-ci "Auditorun səsi" mövzusunda onlayn müzakirənin təşkili" bəndlərinin və Palata sədrinin "Auditorlar Palatasında keçiriləcək tədbirlərin (konfranslar, simpoziumlar, «dəyirmi masa»lar, seminarlar, ustad dərsləri və s.) təşkili və təşviqi barədə" 2022-ci il 12 yanvar tarixli 1/2 saylı Sərəncamının icrasını təmin etmək məqsədilə Palatanın icraçı direktoru S.Gülməmmədov tərəfindən 2025-ci ilin 09 yanvar tarixində təsdiq edilmiş "Azərbaycan Respublikası Auditorlar Palatasının əməkdaşlarının və üzvlərinin 2025-ci il üzrə ölkənin ictimai-siyasi həyatında baş verən hadisələrlə əlaqədar KİV-də fəaliyyətlərinin siyasi reytinqinə dair Tədbirlər Planı"na uyğun olaraq Auditorlar Palatasının Aparatı (Q.Bayramov və F.Kamalova) və Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsi (Z.Almazov) tərəfindən "Auditorlar Palatasında 2025-ci il ərzində fəaliyyət göstərən "dəyirmi masa", təşkil olunan ictimai-siyasi tədbir, konfrans, seminar, ustad dərsləri, "Auditorun səsi" mövzusunda müzakirələr və həmin tədbirlərdə Palata üzvlərinin iştirakının vəziyyəti barədə" hazırlanmış hesabatı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Azərbaycan Respublikasının Auditorlar Palatasında 2025-ci il ərzində fəaliyyət göstərən "dəyirmi masa", təşkil olunan ictimai-siyasi tədbir, konfrans, seminar, ustad dərsləri, "Auditorun səsi" mövzusunda müzakirələr və həmin tədbirlərdə Palata üzvlərinin iştirakının vəziyyəti barədə" hesabat bəyənilsin (hesabat və monitorinqin nəticəsinə dair arayış əlavə olunur).

2. Auditorlar Palatasının Aparatı (Q.Bayramov və F.Kamalova) tərəfindən Auditorlar Palatası sədrinin "Auditorlar Palatasında keçiriləcək tədbirlərin (konfranslar, simpoziumlar, «dəyirmi masa»lar, seminarlar, ustad dərsləri və s.) təşkili və təşviqi barədə" 2022-ci il 12 yanvar tarixli 1/2 nömrəli Sərəncamına uyğun olaraq 12 ictimai-siyasi tədbirin, 2 konfransın, 7 "dəyirmi masa"nın, 2 ustad dərsinin, 16 seminarın, "Auditorun səsi" mövzusunda 2 müzakirənin vaxtında və keyfiyyətlə keçirilməsi işləri müsbət qiymətləndirilsin və mükafatlandırılsınlar.

3. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinin müdiri Z.Almazov tərəfindən Auditorlar Palatası sədrinin 2022-ci il 12 yanvar tarixli 1/2 saylı Sərəncamına uyğun olaraq Palata üzvlərinin və digər iştirakçıların keçirilən tədbirlərdə onlayn iştirakı məsələsinin vaxtında həll edilməsi, Palata üzvlərinin tədbirlərdə iştirakının monitorinqinin aparılması və müvafiq qaydada rəsmləşdirilməsinin təmin edilməsi işləri müsbət qiymətləndirilsin və mükafatlandırılsın.

4. Auditorlar Palatasında 2025-ci il ərzində keçirilmiş tədbirlərin təşkilində fəal iştirak edən 4 nəfər məruzəçiyə (N.Talıbov, E.İbrahimov, Ş.Kərimov, A.Bayramov) təşəkkür elan edilsin.

5. Tədbirlərdə tam iştirak edən 7 nəfər auditor təşkilatının rəhbərlərinə (“Audit Target" MMC, "Bakı Hesabat Mərkəzi” MMC, “BKR Consulting” MMC, “BKR İŞIK Konsaltinq” MMC, “Master Audit Services” MMC, “Modern Audit Servis” MMC, "RR AUDİT" MMC) təşəkkür elan edilsin və tədbirlərin ümumi sayının 60%-dən çoxunda iştirak edən 49 auditor təşkilatının rəhbərlərinin (27%) və 12 sərbəst auditorun (20%) (Cədvəl 1 və 2-də qeyd edilən) işləri müsbət qiymətləndirilsin.

6. Tədbirlərin ümumi sayının 30%-dən azında iştirak edən 44 auditor təşkilatının rəhbərlərinə (24%) və 10 sərbəst auditora (17%) (Cədvəl 3 və 4-də qeyd edilən) gələcəkdə tədbirlərdə daha fəal iştirak etmələri bildirilsin, tədbirlərin heç birində iştirak etməyən 54 auditor təşkilatlarının rəhbərlərinə (30%) və 22 sərbəst auditora (37%) (Cədvəl 5-də qeyd edilən) xəbərdarlıq edilsin və bir daha belə hallara yol verdikləri təqdirdə barələrində daha ciddi intizam tədbirləri görüləcəyi nəzərlərinə çatdırılmaqla onların siyahısı Palatanın internet səhifəsində yerləşdirilsin.

7. Auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tövsiyə olunsun ki, Auditorlar Palatasında keçiriləcək tədbirlərdə daha fəal iştirak etsinlər.

8. Müvafiq məsul icraçılara tapşırılsın ki, nəzərdə tutulan tədbirlərin vaxtında və yüksək keyfiyyətlə keçirilməsini və nəticəsi barədə məlumatların Palatanın internet və sosial şəbəkələrindəki səhifələrində yerləşdirilməsini, zəruri hallarda KİV-də işıqlandırılmasını təmin etsinlər.

9. Maliyyə və texniki təminat idarəsinə (Q.Əhmədov) tapşırılsın ki, bu qərarın 2-ci və 3-cü bəndlərindən irəli gələn məsələləri həll etsin.

10. Auditin təşkili və hesabatlılıq idarəsinə (V.Cavadov), İnsan resursları üzrə menecerə (N.Abdullayeva) və Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, bu qərarın 4-cü, 5-ci, 6-cı və 7-ci bəndlərindən irəli gələn məsələləri həll etsinlər.

11. Bu qərarın və hesabatın mətnləri Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**